**Xalq qəzeti**. - 2022.- 15 sentyabr. - № 199. - S. 7.

# Azərbaycan – Türkiyə qardaşlığının Bakı zəfəri

***Qafqaz İslam ordusunun Bakını azad etməsindən 104 il keçir***

**Mehman Süleymanov,**
Milli Müdafiə Universiteti Hərbi-Elmi Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru

104 il əvvəl Azərbaycan imperialist qüvvələrin məkrli qəsdinin hədəfinə çevriləndə, ölkəmizin türk-müsəlman əhalisi kütləvi soyqırıma məruz qalanda, qazanılmış müstəqillik itirilmək təhlükəsi ilə üzləşəndə Osmanlı Türkiyəsi azərbaycanlı qardaşlarının dəvəti ilə Qafqaz İslam Ordusunu quraraq ölkəmizə göndərmişdi. Qəhrəman Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun zəfər yürüşünün zirvəsi 1918-ci il sentyabrın 15-də birləşmiş qoşunların Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etməsi olmuşdu. O zaman Bakı üzərinə hücumu uğurla başa çatdırmaq üçün Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin sayı 14 minə çatdırılmışdı. Bunların 8 mini Osmanlı, 6 mini isə azərbaycanlı əsgər və zabitlər olmuşdu.

Bu gün müstəqil Azərbaycan Respub-likası Xalq Cümhuriyyətinin bir əsr əmanət qoyduğu mirasın təməlləri üzərində gələcəyə doğru inamla irəliləyir. Qardaş Türkiyə dövləti və xalqı isə 104 il əvvəl olduğu kimi, yenə dil bir, din bir, məslək bir olan Azərbaycanın yanındadır. Bu gün Türkiyə və Azərbaycan böyük Atatürkün vəsiyyət etdiyi kimi – sevincini və kədərini paylaşan iki ölkə, ümummilli lider Heydər Əliyevin formulə etdiyi kimi – bir millətin iki dövlətidir.

Azərbaycan ikinci dəfə müstəqilliyini bərpa edəndən sonra 1918-ci ilin 15 sentyabr Bakı zəfəri hər il hər iki ölkədə tarixi qardaşlığın parlaq təcəssümü olaraq təntənə, öyünc və qədirbilənliklə qeyd olunur. Qafqaz İslam Ordusunun Bakının xilasında, onun tarixi keçmişindəki rolunu gələcək nəsillərin bilməsi vacibdir. 15 sentyabr Azərbaycan xalqının tarixində əhəmiyyətli hadisədir. Çünki Bakının xilası, onun milli şəhər simasının bərpa edilməsi Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfərdir.

1918-ci ilin may ayında dövlət müstəqilliyini elan etməsi ərəfəsində Azərbaycanda son dərəcə mürəkkəb və təhlükəli hərbi-siyasi şərait mövcud idi. Cümhuriyyətin elan edildiyi sərhədlər daxilində olan ərazilərin, az qala, yarıdan çoxu Azərbaycan xalqının varlığına qənim kəsilmiş yad qüvvələrin işğalı altında idi. Bolşevik və daşnak ünsürlərindən təşkil edilmiş bədnam Bakı Soveti martın sonu – aprelin əvvəlində Bakıda və ətraf bölgələrdə kütləvi qırğınlar törətməklə Azərbaycanın şimal sərhədlərindən Kür çayı hövzəsinə qədər olan Xəzərboyu əraziləri, habelə qərbə doğru Hacıqa-bul və Şamaxıya qədər olan əraziləri öz hakimiyyəti altına ala bilmişdi. Qarabağ-da millətçi-daşnak təcavüzkar qüvvələri, respublikanın cənubunda isə çar Rusiyası dövründə İranla sərhəddə yerləşdirilmiş sərhəd briqadasının komandanlığı at oynatmaqda idi.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən dərhal sonra daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin hərbi-siyasi qüvvələri Gəncəyə doğru sürətlə irəliləməyə başlamışdı. Onlar tezliklə Gəncəyə yetişmək və Azərbaycanın müstəqilliyini elə beşikdə ikən boğmaq, yerli əhalini qılıncdan keçirmək niyyətində idilər. Buna görə də əsasını erməni daşnakları təşkil edən Bakı Soveti qoşunları iyunun əvvəllərində sürətlə irəliləyib dəmir yolu xətti boyunca Ucar yaxınlığına, Şamaxı–Göyçay şose yolu boyunca isə Qaraməryəmə yetişmişdi. Bu sürətli hücumun qarşısını isə yalnız Azərbaycana qardaş köməyinə yetişmiş Osmanlı Türkiyəsinin hərbi qüvvələri ilə birlikdə almaq mümkün olmuşdu.

Obyektiv tarixi səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə onun müstəqilliyini müdafiə etməyə qadir yetərli milli hərbi qüvvələr hələ formalaşmamışdı. Ona görə də Azərbaycanda mövcud olan milli hərbi qüvvələrlə Osmanlı Türkiyəsindən qardaş köməyinə gəlmiş qoşun bölməsi baza-sında Qafqaz İslam Ordusu yaradılmışdı. Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşanın kiçik qardaşı Nuru paşa bu ordu-nun komandanı təyin edilmişdi.

Qarşıya qoyulan vəzifələrin həlli – Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi və AXC hakimiyyətinin möhkəmləndirilməsi üçün Nuru paşa-ya həm Osmanlı, həm də Azərbaycan dövləti tərəfindən kifayət qədər bö-yük səlahiyyətlər verilmişdi. Belə ki, Azərbaycanda böyük hərbi qüvvələrə rəhbərlik etməli olan 29 yaşlı Nuru bəy yarbay rütbəsində olmasına baxmayaraq, birdən-birə general-leytenant rütbəsi daşı-maq hüququ qazanmışdı. O, eyni zaman-da, Osmanlı sultanının Cənubi Qafqazdakı səlahiyyətli nümayəndəsi elan edilmişdi. Azərbaycan hökuməti isə ona ölkənin milli hərbi qüvvələrini təşkilatlandırmaq və rəhbərlik etmək səlahiyyəti vermişdi.

Azərbaycanın müstəqilliyini məhv etmək sevdası ilə alışıb-yanan bədnam və yabançı Bakı Soveti qoşunları ilə Qafqaz İslam Ordusu və əlavə ola-raq azərbaycanlılardan ibarət könüllü dəstələrin ilk ciddi

qarşılaşması 1918-ci il iyun ayının ortalarında Qaraməryəm ətrafında baş vermişdi. Burada ağır sınaq-la qarşılaşmasına baxmayaraq, Qafqaz İslam Ordusu tarixi bir qələbə əldə etmişdi. Dövlət müstəqilliyimizin zəfər yürüşünə çıx-mış bu ordunun bölmələri Qaraməryəmdən başlayaraq Bakıya qədər uzanan uğurlu bir yürüşün başlanğıcını qoymuşdu. Bu yürüşün son nəticəsi isə Bakı şəhərinin azad edilməsi, bu şəhərin yad qüvvələrdən təmizlənməsi olmuşdu.

Qaraməryəmdən başlayaraq Bakıya qədər olan əraziləri Qafqaz İslam Ordusu, təxminən, bir ay yarıma azad edə bilmiş-di. Bakı şəhərinin azad edilməsi üçün də, təxminən, bu qədər vaxt sərf etmək lazım gəlmişdi. Çünki Bakıya hakim olmaq istəyən yad qüvvələr, onların köməyinə gəlmiş ingilis hərbi qüvvələri, habelə Bakıətrafının coğrafi şəraiti Qafqaz İslam Ordusunun sürətli hücumunu müəyyən bir müddətə ləngidə bilmişdi. Bununla belə, Azərbaycan xalqının və Türkiyə hökumətinin iradəsini əks etdirən Qafqaz İslam Ordusu ona tapşırılan vəzifəni uğurla yerinə yetirmişdi və sonda Bakını bu şəhərə təbii paytaxt haqqı olan xalqımızın sərəncamına qaytarmışdı.

1918-ci il iyul ayının son günlərində Qafqaz İslam Ordusu qüvvələrinin Bakı həndəvərinə yetişməsi ilə Stepan Şaum-yanın rəhbərliyi altında olan Bakı Soveti istefa vermək və şəhərə nəzarəti Sent-rokaspi adlanan eser-menşevik-daşnak hökumətinə vermək məcburiyyətində qaldı. Bakı Soveti kimi bu tör-töküntü hökumətin və ona tabe olan hərbi qüvvələrin rəhbərliyinin də əsasını erməni millətçi-daşnakları təşkil edirdilər. Sentrokaspi diktaturası özünü Bakının hakimi elan etdikdən dərhal sonra daş-nak nümayəndələri İrana göndərildi və onların vasitəsilə burada olan ingilis hərbi qüvvələrinin komandanı general Denster-vil rəhbərlik etdiyi qoşunla Bakıya dəvət olundu.

Bakı neftinə və bütünlükdə Xəzər hövzəsinə sahib olmaq üçün yollar axtaran Böyük Britaniya hökuməti dərhal yaranmış fürsətdən yararlandı. General Denstervilə göstəriş verildi ki, Bakıya hərbi qüvvə çıxarsın. Nəticədə, Bakıya göndərilməsi qərarlaşdırılan 39-cu ingilis briqadası-nın ilk bölmələri 1918-ci il avqust ayının 4-də gəmilərlə Ənzəlidən Bakıya gətirildi. Onların gəlişini sonsuz sevinclə qarşılayan erməni daşnakları öz niyyətlərinə çox yaxın olduqlarını düşünürdülər. Azərbaycan milli hökumətinin Bakı üzərinə ilk genişmiqyaslı hücumunun dayandırılması da onların bu şadyanalığına səbəb olmuşdu.

1918-ci il avqust ayının 5-də Qafqaz İslam Ordusu qüvvələri tərəfindən Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsi üçün başlanılan ilk irimiqyaslı hücum gözlənilən nəticəni vermədi. Qafqaz İslam Ordusu qüvvələri Qurd qapısı istiqamətindən başlanan hücum zamanı bu yüksəkliklərdə yerləşən ilk səngərləri ələ keçirsələr də, təchizat çətinlikləri üzündən əvvəlki mövqelərinə, yəni Qurd qapısı ilə üzbəüz yüksəkliklərə geri çəkilmək məcburiyyətində qaldı.

Qafqaz İslam Ordusu qüvvələri avqust ayının 5-də başladıqları döyüşdə, sadəcə, geri çəkilmədi, çox ciddi itkilərə də məruz qaldı. Bu döyüşün nəticələri məlum olan kimi Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy bir neçə qərargah zabiti ilə birlikdə Bakı ətrafına gəldi və onlar baş verənləri ciddi şəkildə araşdırdılar. Aparılan araşdırmalar göstərdi ki, Qaf-qaz İslam Ordusu qısa müddət ərzində Qaraməryəmdən Bakıya qədər ağır döyüşlər keçirmiş, şəxsi heyət müəyyən yorğunluqla qarşılaşmış, silah və sursat təchizatında çatışmazlıqlar yaranmışdı. Bununla belə, şəxsi heyətdə Bakı şəhərinin tezliklə azad edilməsi ilə bağlı sonsuz bir istək də var idi.

Bakı şəhərinin tezliklə azad edilməsi Ənvər paşadan müvafiq göstərişlər almış Nuru paşanın da intizarında olduğu məsələ idi. Çünki Birinci Dünya müharibəsi dövründə Türkiyənin müttəfiqi olan Almani-ya da Rusiya və Böyük Britaniya kimi, Bakı neftinin ələ keçirilməsinə çalışırdı. Ona görə də Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsinin qarşısının alınması üçün bu ölkə Türkiyəyə çox ciddi təzyiqlər göstərirdi. Bu məsələdə Almaniya hətta bolşevik Rusiyası ilə də sövdələşməyə girmiş və Bakı neftini əldə etmək üçün Ru-siya qarşısında öz imkanlarından istifadə etməklə Türkiyəyə təzyiqləri gücləndirməyi öz öhdəsinə götürmüşdü.

Ənvər paşa isə tezliklə Bakının azad edilməsi ilə bağlı Nuru paşa qarşısında ciddi tapşırıq qoymuşdu. 5 avqust döyü-şünün uğursuzluğu Qafqaz İslam Ordusu komandanlığının iradəsini qıra bilmədi. Bakı üzərinə növbəti uğurlu hücumun təşkil edilməsi üçün zəruri hazırlıq tədbirlərinin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə başlandı. Cəbhə bölgəsində aparılan təhlillərdən sonra Azərbaycana əlavə bir türk diviziyasının da göndərilməsi haqqında məsələ qaldırıldı. Bu məsələ Qafqaz İslam Ordusu komandanlığı tərəfindən də dəstəkləndi və bununla bağlı Türkiyə Hərbi Nazirliyinə müraciət edildi. Bakı şəhərinin ən qısa zamanda azad olunmasını arzulayan Ənvər paşa da bu təkliflə razılaşaraq 15-ci piyada diviziyası-nın Bakı ətrafına göndərilməsi haqqında sərəncam verdi.

Eyni zamanda, Azərbaycan daxilində yenidən mövcud qüvvələrin cəbhəyə səfərbər edilməsi üçün lazımi işlər görül-dü. Bu məqsədlə Bakı ətrafındakı milli qüvvələrə əlavə olaraq Ağdaş alayının bölmələri bura gətirildi. Qazax və Gəncə ətrafında toplanmış olan milli qüvvələrin Bakı ətrafına göndərilməsinə də göstəriş verildi. 5-ci türk diviziyasının komandiri Mürsəl paşanın fikrincə, həmin qüvvələrin Bakı cəbhəsinə gətirilməsi oradakı şəxsi heyətin mübarizə əhval-ruhiyyəsinin qalxmasına kömək edə bilərdi. Bakıətrafı

kəndlərdən xeyli könüllü toplandı və bu qüvvələr Maştağa dəstəsi adlanan ayrıca bir dəstədə birləşdirildi. Bütünlükdə, 5 avqust döyüşündən sonra Bakının ətraf kəndlərinin Sentrokaspi–ingilis qoşunlarına qarşı fəallığı xeyli gücləndi.

Həlledici hücumun başlandığı günə qədər Nuru paşanın göstərişi ilə Bakı ətrafında qüvvələrin yenidən qruplaşdırıl-ması aparıldı, müxtəlif manevrlər həyata keçirildi və mövqe döyüşləri davam etdiri-lirdi. Hücuma hazırlıq üçün lazım olan 40 gün ərzində keçirilən mövqe döyüşləri ilə Nuru paşa düşmən qüvvələrinə ciddi zərbə vurdu və onları daim bir gərginlik altında saxlamağa müvəffəq oldu. Bu mövqe döyüşləri ilə cəbhə xətti uzadıldı, qarşıdakı düşmənin qüvvələrinin parçalanmasına nail olundu və Bakı şəhərinin mühasirəsi daraldıldı.

Qərara alındı ki, Bakı üzərinə hücumun coğrafiyası genişləndirilsin, şəhərətrafı kəndlər və mövqelər düşmən qüvvələrin nəzarəti altından çıxarılsın. Ona görə də avqust ayı ərzində Bakı ətrafında möv-qe döyüşləri aparıldı, yeni və münasib mövqelər ələ keçirilməklə, həm də şəxsi heyətin mübarizə əhval-ruhiyyəsi bərpa edildi, özünəinamı geri qaytarıldı.

Bakı ətrafında aparılan ciddi mövqe döyüşlərindən biri də Sumqayıta aparan yol ilə Binəqədi kəndi arasında yerləşmiş 364 (Yanardağ) və 311 (Binəqədi) nömrəli təpələr uğrunda oldu. İslam Ordusu ko-mandanı Nuru paşanın bu təpələrin tutul-masına xüsusi diqqət yetirməkdə məqsədi Bakı üzərinə qəti hücum zamanı cəbhənin sol cinahının hər hansı bir təhlükəyə məruz qalmasının qarşısını almaq idi. Əks təqdirdə, Sentrokaspi və ingilis qüvvələri həmin təpələrdə toplar yerləşdirməklə Biləcəri–Xırdalan ətrafından şəhərə doğru hücumun qarşısını saxlaya bilərdi.

Bakı üzərinə həlledici hücumun gedişi də göstərdi ki, Yanardağ və Binəqədi yüksəkliklərinin ələ keçirilməsi incə düşü-nülmüş bir plan idi. Hazırlıq dövrü ərzində ən əhəmiyyətli mövqe döyüşü olan bu döyüşdə düşmənə ciddi zərbə vurulmaqla çox vacib yüksəkliklər nəzarət altına alındı.

Sentyabr ayının 1-də Qafqaz İslam Ordusunun qüvvələri mövqe döyüşlərini davam etdirdilər. Elə günün birinci yarı-sında Digah və Məhəmmədli kəndləri, habelə Digahın cənubundakı 345 rəqəmli təpə azad edildi. “Sentrokaspi” və ingilis qoşunları böyük bir vahimə içərisində Balaxanı və Ramanı kəndləri istiqamətində geri çəkildilər. Bu istiqamətdə gedən döyüşlərdə Salyan qışlası yaxınlığında milli qüvvələr bir düşmən təyyarəsi də vurdular.

Sentyabrın 6-da Türkiyədən əlavə olaraq göndərilən 15-ci piyada diviziyası nəhayət ki, Ağstafaya çatdı və oradan da dərhal qatarla Gəncəyə yola düşdü. Elə həmin gün saat 10-da Gəncə dəmir yolu stansiyasında bu diviziya qüvvələrinin qarşılanması oldu. Bundan sonra 15-ci diviziya Bakı ətrafına yola salındı. Bu diviziyanın gəlişi ilə Bakı üzərinə həlledici hücuma hazırlıq son mərhələsinə qədəm qoydu. Həmin hücumun təşkili məqsədilə sentyabrın 10-da Qafqaz İslam Ordusu komandanı Nuru paşa və Azərbaycan kor-pusunun komandanı Əliağa Şıxlinski Bakı ətrafına gəldilər.

Döyüş bölgəsinə gəldikdən sonra Nuru paşa ilə Əliağa Şıxlinski şəhər ətrafındakı vəziyyətlə tanış oldular, komandirlərin məruzələrini dinlədilər. Mövcud vəziyyət qiymətləndiriləndən sonra sentyabr ayının 13-də saat 17.11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakı üzərinə həlledici hücumu başla-maq barədə döyüş əmrini imzaladı.

Beləliklə, Bakı şəhəri üzərinə qəti hü-cum üçün artıq hər şey hazır idi. İndi yalnız onun icrası qalırdı. Verilmiş döyüş əmri, müəyyənləşdirilmiş vəzifələr tamamilə real idi. Hiss olunurdu ki, ilk hücumda düçar olunan uğursuzluğa yol verməmək üçün bütün ehtiyat tədbirlər nəzərə alınmış-dı. Qafqaz İslam Ordusu komandanlığı tərəfindən qətiyyətli olduğu qədər də ehtiyatlı, diqqətlə düşünülmüş bir hücum planı hazırlamışdı. Ola bilsin ki, burada hətta ifratçılığa da yol verilmişdi. Hissə və bölmələrin az qala hər addımı sığortalan-mış, ikiqat, üçqat mühafizə elementləri nəzərdə tutulmuşdu. Ələ keçirilən bir döyüş xəttində kifayət qədər möhkəmləndikdən sonra növbəti döyüş xətti üzərinə hücum edilməli idi. Bundan başqa, cinahların mühafizəsinə, ehtiyat qüvvələrin ayrılması-na xüsusi diqqət yetirilirdi.

5-ci türk diviziyasının qərargah rəisi Rüşdü bəy xatirələrində yazırdı ki, o gecə heç kim yatmamışdı. Döyüşçülər 5 avqust döyüşünün intiqamını almaq üçün hücum saatının çatmasını səbirsizliklə gözləyirdilər: “İstiqlalına aşiq Anadolu türkü nəhayət, qonşu və qardaş millətin istiqlalını da həmin mücadilələr ilə təmin və azərbaycanlıların əlinə tövdü və təslim etmişdi. Bakısız Azərbaycan başsız bir vücuddur. Onsuz bir işə yaramazdı. Binaənələyh Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətini behəmehal Bakı ikmal və itmam edəcəkdi. 5-ci Qafqaz firqəsi bunu əldə etmək üçün avqust bidayətlərində günlərcə boğaz-boğaza düşmənlə müharibə və mücadilə etdi. Fəqət məalesəf Bakının alınması 39 gün qədər təəhhür etdi”.

Hazırlanmış hücum planına əsasən, 5-ci türk diviziyası və ona verilmiş milli hərbi dəstələr Qurd qapısının Bayıldan başlayaraq, təxminən, Biləcərinin qərb ətəklərinə qədər olan ərazidən hərəkət etməli idi. Biləcəri-Sabunçu-Əhmədli çevrəsi boyunca isə 15-ci türk diviziya-sı və ona verilmiş milli hərbi qüvvələr hücuma keçməli idilər. Azərbaycanın milli hərbi qüvvələrinin və könüllü dəstələrinin böyük bir hissəsi bu

istiqamətdən hücuma qoşulmuşdu. Nəzərdə tutulmuşdu ki, əsas zərbə Qurd qapısı istiqamətindən vurulsa da, Bakının şimal-şərq çevrəsi boyunca mövcud olan düşmən qüvvələr də tədricən şəhərə sıxışdırılsın.

Bu hücum elə bir sürətlə həyata keçirildi ki, hətta Qafqaz İslam Ordusunun komandanlığı üçün də onun nəticələri gözlənilməz oldu.

Eynilə ingilis qoşunları komandanı general Denstervil də gözlərinə inana bilmirdi ki, gecə vaxtı, əlverişli mövqelərdə qurulmuş müdafiə səngərləri belə bir sürətlə ələ keçirilmişdir. Öz xatirələrində o, Qafqaz İslam Ordusu qüvvələrinin sürətli hücumunu belə təsvir edirdi: "Bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq hücumun elə ilk anlarından darmadağın edilən belə qoşunlarla heç nəyə ümid etmək mümkün deyildi və bizim indi yeganə vəzifəmiz geri çəkilməyi təmin etmək və qoşunların düzgün təxliyyəsini təşkil etmək üçün düşmən hərəkətlərini ləngitmək idi".

Qurd qapısı istiqamətində əldə edilən uğur 15-ci diviziyanın mövqelərində də təkrarlandı. Sonradan uğurla inki-şaf etdirilən hücum nəticəsində bütün istiqamətlərdə, bütün döyüş sahələrində düşmənin müqaviməti qırıldı. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam Ordusunun hücumlarının qarşısının alınmasının qeyri-mümkünlüyü haqqın-da qəti əminlik əldə edildi. Ona görə də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. Bununla da "Sentrokaspi" rəhbərləri ümid bağladığı əsas qüvvələrdən məhrum oldular. Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməmişdisə də, artıq onun taleyi həll olunmuşdu.

Sentyabrın 14-də gedən döyüşlərin nəticələri, ümumən, Qafqaz İslam Ordusu komandanı Nuru paşanı razı saldı. Qarşıya qoyulan tapşırığını yerinə yetirən Qafqaz İslam Ordusu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıqda keçirdilər. Sent-yabr ayının 15-də Qafqaz İslam Ordusu qüvvələri uğurlu hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar. Çıxış yolunun qalmadığını görən Sentrokaspi rəhbərliyi Qafqaz İslam Ordusu rəhbərliyi ilə əlaqə yaradılması üçün yollar aramağa başladı. Bu məqsədlə Sentrokaspi rəhbərliyi sentyabr ayının 14-də axşam saat 8-də İranın Bakıdakı konsulu Saədülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməsi xahiş olundu.

Bu təklifi alandan sonra Saədülvüzəra iki nəfəri məktub və ağ bayraqla döyüş mövqelərinə göndərdi. Lakin onlar Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqə yara-da bilmədilər. Səhəri gün, yəni sentyabrın 15-də İran konsulu yenidən vasitəçilik missiyasının icrasına davam etdi. Nəhayət, tərəflər arasında aparılan danışıqlardan sonra Sentrokaspi rəhbərliyi Bakı şəhərini Qafqaz İslam Ordusunun nəzarəti altına verməyi öz üzərinə götürdü. Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordu-su tərəfindən azad edildi. "Sentrokaspi" diktaturasının şəhərdəki dayaqları olan qüvvələr gəmilər vasitəsilə qaçıb canlarını qurtardılar. Qaçmaq imkanı olmayanlar isə təslim oldular.

Qafqaz İslam Ordusunun komandanı Nuru paşa sonralar Bakı əməliyyatının gedişini belə xatırlamışdı: "Bakının qərb və şimalındakı mövqelər düşməndən təmizlənmişdi. Çoxlu pulemyot və zirehli maşınlarla təchiz olunmuş düşmənlə küçə döyüşünə girməklə çox itki verəcəyimiz ehtimalına görə gecəni şəhərdən kənarda keçirmişdik. Ancaq top atəşi ilə düşmənin limanları və müqavimət nöqtələri atəş altın-da saxlanmışdı. Sentyabrın 15-də günorta-dan sonra əvvəlcə 56-cı alay şəhərə daxil olmuş və mühüm obyektlər ələ keçirilmişdi. Hədəfimiz olan Bakı alınmış, bu mühüm əməliyyat sona çatmışdı".

Bakı şəhərinin azad edilməsi həm Azərbaycan ictimaiyyətinin, həm də Türkiyə dövlət rəhbərlərinin, xüsusilə Ənvər paşanın çox böyük sevincinə səbəb olmuşdu. O, Nuru paşa göndərdiyi teleqra-mında belə yazırdı: "Böyük Turan impe-ratorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini ən böyük müsərrətlə qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşit-mişdi. O dərhal Azərbaycan hökumətinin sədri F. Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Teleq-ramda deyilirdi: "Hürriyyət və istiqlaliyyət uğrunda çarpışan türk millətinin istinadgahı olan Bakının qurtuluşu münasibətilə rəisi bulunduğunuz hökumət ərkanını candan təbrik edər və salamlaram".

Azərbaycan milli mücadiləsinin liderlərindən biri olan Nəsib bəy Yusifbəyliyə görə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrun-da türk hərbçilərinin göstərmiş olduğu xidmətləri Nuru paşaya xitab edərkən belə dəyərləndirimişdi: "Millət sizə minnətdardır". N. Yusifbəylinin fikrincə, Azərbaycan durduqca bu üç kəlmə millətin dilində və qəlbində yaşayacaqdır.

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi-keçidi keçirildi. Bu rəsmi-keçid Qırmızı Qışla adlanan məntəqədə (İndiki Bakı Dövlət Universiteti ilə Bakı-Quba yolu arasında yerləşirdi) təşkil edildi. Rəsmi-keçiddə Xəlil paşa, Nuru paşa, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak

edirdilər. Rəsmi-keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və rəsmi şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Şəhər əhalisi küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib döyüşçülərini salamladılar və Bakı şəhərinin azad edilməsi kimi böyük tarixi hadisənin sevincini onlarla bölüşdülər.

Bununla, Bakı şəhəri öz azadlığına qovuşmuş və onun tarixində müstəqil bir xalqın baş şəhəri olmaq kimi şərəfli bir səhifənin başlanğıcı qoyulmu Bakı uğrunda döyüşlərdə 5-ci Qafqaz diviziyası 1300-ə qədər şəhid vermişdi. Ümumilikdə isə iyunun ortalarından sentyabrın 15-dək Qafqaz İslam Ordusunda döyüşlər zamanı şəhid olanların sayı isə, təxminən, 4 min nəfər olmuşdu. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının işğaldan azad edilməsi XX əsr dövlətçilik tariximizdə ən əhəmiyyətli günlərdən biri kimi olduqca strateji əhəmiyyət daşımışdı.

Qafqaz İslam Ordusunun Nuru Paşanın rəhbərliyi ilə Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi misilsiz tarixi hadisə idi. 15 Sentyabr Türkiyə–Azərbaycan qardaş-lığının əbədiyyətə qədər davam edəcək şərəf tarixidir. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, Bakı zəfəri şəhidlərinin əziz xatirəsi daim qədirbilən soydaşlarımızın qəlbində yaşadacaq.